DOI: 10.30546/2616-4418.20.2022.58

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN PERSPEKTİVLİ İNVESTİSİYA İMKANLARI

**Asiman MUSAYEV**
*Fam Group Consulting MMC, Azərbaycan*

## 1. Giriş

Turizmin inkişafı hökumətin əsas prioritetlərindən birini təşkil edir. 1999-cu ildə qəbul edilmiş və müxtəlif dövrlərdə əlavələr və dəyişikliklər edilmiş “Turizm haqqında” Azərbaycan Respublikası qanununda da qeyd edildiyi kimi turizm fəaliyyətinə kömək etmək, onun inkişafı üçün əlverişli şərait yaratmaq, turizm infrastrukturunu inkişaf etdirmək, turizm sahəsində yeni iş yerlərini yaratmaq, Azərbaycanın beynəlxalq səviyyədə turizm əhəmiyyətli bir ölkə kimi təsəvvür formalaşmasına çalışmaq dövlətin əsas tənzimləyici funksiyalarıdır. Eyni zamanda turizmin inkişafına dair dövlət proqramlarının işlənib hazırlanması, qanun layihələrinin qəbul edilməsi və icrası kimi bu digər məsələlərdə qanunda təsbit olunduğu kimi dövlətin turizm sahəsində əsas vəzifələrinə aiddir.


*© 2021 The Authors. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution License.*

2011-ci il Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Turizm ili" elan olunmuş və bununla bağlı "Tədbirlər planı" hazırlanmışdır. Bununla bağlı bir sıra layihələr, beynəlxalq konfranslar həyata keçirilmiş, beynəlxalq turizmdə təbliğatla bağlı bir sıra ölkələrdən infoturlar təşkil edilmiş, ölkənin bir sıra turizm sahələrinin inkişafı ilə bağlı investisiya layihələri icra edilmişdir.

Ölkə turizminin hazırki vəziyyəti nəyi əks etdirir? Müstəqillik illəri ərzində qəbul edilən qanun layihələri nə dərəcədə icra olunmuşdur? Hansı beynəlxalq turizm layihələri həyata keçirilmişdir? Turizmə cəlb olunan investisiyalar nə dərəcədə əhəmiyyətli olmuş və gəlir gətirmişdir? Qarabağın işğal altında qalması ölkə turizminə nə dərəcədə təsir etmişdir? Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları işğaldan azad edildikdən sonra turizm baxımından hansı perspektivləri vardır? Hansı investisiya layihələrini həyata keçirmək olar? Bu mövzuda beynəlxalq təcrübədən necə yararlanmaq olar? Tədqiqat zamanı bu suallara cavablar axtarılmışdır.

Ölkənin turizmin potensialının bu qədər geniş olması, COVİD-19 pandemiyasının dünya ölkələrinə, eyni zamanda Azərbaycan turizminə vurduğu zərər və ən önəmlisi Qarabağın işğaldan azad olunması ilə ölkəyə turizmdən gələcək illərdə daxil olacaq faydanın, bunun üçün isə lazımi investisiyaların həyata keçirilməsi kimi məsələlər mövzunun necə də aktual olduğunu göstərir.

Qarabağın işğaldan azad olunması şübhəsiz ki, turizm sahəsi üçün yeni imkanlar yaradır. Hazırkı dönəmdə bu sahəyə yatırılacaq investisiyalar ölkə iqtisadiyyatına gələcək dövrdə böyük töhvə verəcəkdir. Ərazinin əlverşli coğrafi şəraiti də turizm əhəmiyyətli olduğundan, eyni zamanda tarixi abidələrlə zəngin olması bölgəyə turist axınının da çox olacağını gözləmək olar. Mövzunun araşdırılması və təhlili bölgənin turizm sahəsinin və bu sahəyə cəlb oluna biləcək perspektiv investisiya layihələrinin öyrənilməsi və təkmilləşdirilməsində istifadə oluna bilər.

## 2. Ədəbiyyat araşdırması

Robert Arakelov Bakı ermənisidir. Rusca "Karabaxskaya tetrad" ("Qarabağ dəftəri", 1997) adlı kitab yazıb nəşr etmişdir. O, bu kitabında Azərbaycan xalqına edilən haqsızlığı özünəxas ürəkağrısı ilə, ironiya ilə çatdırır. Arakelov Dağlıq və Aran Qarabağı haqlı olaraq "siam əkizləri" adlandırır, onların birbirindən ayrılmasının heç Allaha da xoş getməyəcəyini,

bunun heç mümkün belə olmayacağını yazır. O belə bir misal çəkir ki, 1989-cu ildə DQMV Ermənistana birləşdirilməsi ideyası "gerçəkləşəndə" Xankəndidəki bazarın qabağına gətirib bir lövlə vurdular: "Ermənistan Aqrar Sənaye Komitəsi". Bazar boş, ərzaq gətirən yox. Bu idi Ermənistanın qarabağlılara "töhfəsi". Ardınca isə aclıq, səfalət, gerilik. Arakelova görə, Qarabağı Azərbaycandan qoparmaq ideyasının memarları nəzərə almalıydılar ki, regionda bugünkü Ermənistan 30-cu illərin Avropasında Almaniya deyil: nə potensialı var, nə də imkanları. Onlar Ermənistanın anklav vəziyyətini, geopolitik durumunu da nəzərə almadılar. Onlar onu da nəzərə almadılar ki, Ermənistanın təcavüzkar hərəkətləri qonşularını necə də narazı salacaq.

Ermənilərin Azərbaycanın işğal altında olan ərazisindəki təbii sərvətlərinə qarşı törətdiyi vandalizm aktlarını Çərkəz Qubadlı (Məmmədov) "Qubadlının təbiəti erməni işğalından əvvəl və sonra"(2007) adlı kitabında geniş şəkildə araşdırıb. Ç.Qubadlı yazır ki,Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik bir çox göl-lər böyük antropogen təsirə məruz qalmışdır. Bu ərazilərdə irili-xırdalı 7 rekit göl: Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük və Kiçik Alagöllər, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayonu ərazisində (Tərtərin qolu olan Torağaçayda) Qaragöl kimi şirin su ehtiyatları vardır: "Sərsəng su anbarı Tərtər çayı üzərində 1976-cı ildə inşa edilmiş, ümumi su tutumu 560 milyon kubmetr, bəndinin hündürlüyü 125 metrdir. İşğaldan qabaq 79000 hektar əkin sahəsi Sərsəng su anbarı vasitəsilə suvarılırdı. Lakin uzun müddətdir texniki qurğulara xidmət göstərilmədiyindən, qəza vəziyyətində olan anbardan aşağıda yerləşən 400 min nəfər əhali təhlükə altında yaşayır. Bundan əlavə, yayda illik su normasının 10-15 faizi buraxılır ki, bu da əkin sahələrinin suvarılmasında problemlər yaradır, yaşıllıqlar susuzluqdan quruyaraq məhv olur, ciddi ekoloji gərginlik yaranırdı.

Ç.Qubadlının bildirdiyinə görə, Qubadlı rayonunun Həmzəli kənd sakini Qaraşov Əlizaman Telman oğlu izahatında qeyd edir ki, 1993-cü ilin avqust ayından 1994-cü ilin oktyabr ayına kimi erməni əsirliyində olub. "Əsir düşəndə 13 yaşım vardı. Ermənilər məni Xankəndidə donuz tövləsində saxlayırdılar. Azyaşlı olmağıma baxmayaraq, məni ermənilər hər gün döyür, söyür, işgəncə verir, ac-susuz saxlayır, lazım olanda ağır işlər gördürürdülər. Mən və yaşıdlarımı Horadiz bazasından pambıq və meşələrimizdən kəsilmiş ağac hissələrini maşına yığıb boşaltmağa məcbur edirdilər. Uşaq olsam da meşələrimizin, bağlarımızın amansızlıqla kəsilib daşındığını, ov-vəhşi heyvanların acgözlüklə ovlandığını, çaylarımızdakı balıqların kütləvi şəkildə məhv edildiyini gördükcə ürək ağrısı keçirirdim."

## 3. Metodologiya

Tədqiqatda kəmiyyət metodologiyalarından istifadə edilmişdir. İşğal olunmuş ərazilərə dəymiş zərər, bölgədə olan sərvətlərin qeyri-qanuni istismarı və müharibədə qazanılan qələbədən sonra görüləcək tədbirlərdən söz açılmışdır.

Qarabağın sosial-iqtisadi vəziyyəti, əvvəlki illərdə olan durum və turizm baxımından baş verən dəyişikliklərin, əsas göstəricilərin, eyni zamanda Covid-19 pandemiyasının turizmə vurduğu ziyanın statistik göstəriciləri kəmiyyət metodundan istifadə edilərək təhlil olunmuş, milli turizmə qoyulmuş investisiyalar qiymətləndirilmişdir.

## 4. Analiz

### *4.1 Problemin qoyuluşu və mövcud vəziyyət*

2020-ci il sentyabrın 27-də başlayan vətən müharibəsində şanlı ordumuz tərəfindən qazanılan qələbə ilə Qarabağ 30 illik düşmən əsarətindən azad olundu. Ermənilər keçən dövr ərzində Dağlıq Qarabağ və ətraf rayonlara amansız divan tutmuş, onun bütün sərvətlərini talan etmiş, əsrarəngiz təbiətinə zərər vurmuşdur. Lakin 44 gün davam edən müharibədə tarix hər şeyi öz yerinə qoydu.

Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yenidən bölgüsü təsdiq edilmişdir. Bu fərmana əsasən Xankəndi şəhəri, Ağcabədi, Bərdə, Ağdam, Füzuli, Tərtər, Xocavənd, Xocalı və Şuşa rayonları Qarabağ iqtisadi rayonunun tərkibində, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə Şərqi Zəngəzur iqtisadi rayonun tərkibində yer almışdır. Yeni iqtisadi rayonların bölgüsünə əsasən müvafiq layihələrin hazırlanması, tədbirlərin görülməsi, qəbul edilən qərarların tənzimlənməsi və həyata keçirilməsi istiqamətində addımlar atılmaqdadır.

Qarabağ iqtisadi rayonunun ərazisinin iqlimi 1000-2000 metr yüksəklikdə mülayim soyuq, düzənlik və alçaq, dağətəyi sahələrdə isə nisbətən quru və istidir. Yağıntılar relyefdən asılı olaraq 400-900 mm-dir.

Bu cür iqlim şəraiti iqtisadi rayonun kurort-turizm təsərrüfatının və digər sahələrin inkişafına xüsusi şərait yaradır. İqtisadi rayonun əsas təbii sərvətləri polimetal filizləri, mərmər, sement, tikinti daşı kimi tikinti materialları, təbii

qaz olsa da, təbii balneoloji ehtiyatlari, meşələri, Turşsu, Şırlan kimi mineral bulaqları həm istirahət, həm də müalicə baxımından rayonun əsas turizm sərvətləri hesab olunur.

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın cənub-qərbində yerləşir. Qərbdən Ermənistan, Cənubdan İran İslam Respublikası ilə həmsərddir. Təbii ehtiyatlardan qızıl, civə, xromit, mərmər, perlit, xromit və s. faydalı qazıntılarla zəngin olması səbəbindən rayonun əsas təsərrüfat sahələrindən biri olaraq əlvan metallurgiya hesab olunur. Bundan əlavə Şərqi Zəngəzur iqtisadi rayonu öz coğrafi mövqeyinə və tarixi abidələrinə görə turistik əhəmiyyət daşıyır. Rayonun landşaft tipində dağlıq landşaftı üstünlük təşkil edir. Rayonun əlverişli təbii şəraiti, zəngin ehtiyatları, bol günəş enerjisi, yaxşı su təminatı, müxtəlif mineral ehtiyatları ilə zəngin olması rayonu turizm sahəsi üçün xeyli əlverişli edir. İstisu , Minkənd, Tutqunçay mineral bulaqları, iqlim-balneoloji şəraiti, dağ meşələri kurort-rekreasiya baxımından qiymətlidir. Rayonda hidroqrafik şəbəkə də inkişaf etmişdir. Həkəri, Oxçuçay, Tərtər çayları Araz çayına tökülür. Azərbaycanda yeganə vulkan mənşəli göllər olan Böyük və Kiçik Alagöllər və Qaragöl turizm-rekreasiya baxımından çox böyük əhəmiyyətli hesab olunurlar. İqtisadi rayon mineral sularla zəngindir. Qarabağ vulkanik yaylasında toplanmış mineral su ehtiyatları müxtəlif kimyəvi tərkibə malikdir. Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın ümumi mineral su ehtiyatlarının 33%-ni təşkil edir. Ən böyük mineral su ehtiyatları Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər) və Minkənd (Laçın) müalicəvi əhəmiyyətə malikdir. Bu isti bulaqların potensial ehtiyatları, onların yerləşdiyi ərazinin təbii füsunkarlığı kurort müalicə kompleksinin yaradılması üçün üstünlük verilən təbii amillərdir. İqtisadi rayonun landşaftı alp və subalp çəmənlikləri və meşələri ilə xarakterizə olunur. Nadir ağacların olduğu meşə sahəsi 92000 hektardır ( respublika meşələrinin 9 faizi). Bunların 72 faizi Kəlbəcər və Laçın rayonlarının turizm və rekreasiya meşələridir.

Qarabağ münaqişəsinə qədər bütün Qarabağ ərazisinin 36%-i və ya 160 min hektarı sırf meşələrdən ibarət idi. Azərbaycanın Qarabağ bölgəsi Kiçik Qafqaz dağlarında ölkənin ümumi ərazisinin 1/6 hissəsini (düzənliklər, dağlar, yüksək dağlıq ərazilər) tutur. Dövlət Bəsitçay və Qaragöl təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı təbiət yasaqlıqlarında nadir flora və fauna 30 ildir nəzarətsiz idarə olunduğuna görə təhlükə altında olmuşdur.

Xocavənd rayonundakı Azıx mağarası nadir yarasa növlərinin sığınacağıdır. Respublikamızın milli və mədəni sərvəti olan bu qoruqlarda yüzlərlə relikt, nadir ali və ibtidai bitki növləri, o cümlədən 21 növ Azərbaycan endemi, 82 növ Qafqaz endemi, həmçinin yüzlərlə nadir və nəsli kəsilməkdə olan növlər, 3000-ə yaxın sənaye əhəmiyyətli bitkilər təhlükə altında qalmışdır.

Xarici şirkətlərin Qarabağda törəmə filiallarını yaradan Ermənistan hökuməti bu törəmə müəssisələrin rəhbərliyinə erməni millətindən olan rəhbərlər gətirərək, böyük hiyləgərliklə Qarabağa xarici investisiyalar cəlb edirdi. Bunun da nəticəsində Qarabağın təbii sərvətləri qeyri–qanuni yollarla xarici ölkələrdə satışa çıxarılırdı.

Əldə edilən gəlir Ermənistanın inkişafına sərf olunur, bir qismi isə Qarabağda yaşayan ermənilərin maddi vəziyyətlərinin yaxşılaşdırılmasına yönəldilirdi. Təəssüflər olsun ki, özlərini demokratiya, insan hüquqları, ekologiyanın qoruyucuları kimi dünyaya car çəkən Qərb dövlətləri, hətta şimal qonşumuz Rusiyanın iş adamları belə bəzi məqamlarda öz maddi maraqları naminə Dağlıq Qarabağda Ermənistanın işğalçılıq siyasətini və həmin ərazilərində ermənilərin törətdiyi talançılıq əməllərini davam etdirilməsinə göz yumur, özlərini təmsil edən şirkətlər vasitəsilə “erməni dəyirmanına su” tökürdülər. Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan ərazilərinin 261 min hektar meşə sahəsi, o cümlədən pasportlaşmış 145 Şərq Çinarı məhv edilib.

Belə zəngin təbii şəraitə və faydalı qazıntı ehtiyatlarına malik olan iqtisadi və ekoloji ərazilər iqtisadi və ekoloji gərginlik şəraitində idi. Təəssüf ki, təmiz hava, meşələr, mineral su və bulaqlar, tarixi tikililər və s. erməni işğalçıları tərəfindən dağıdılmış, talan edilmiş və ixtisar edilmişdir. 20 ildən artıqdır ki, işğal altında olan meşələrdə sənaye əhəmiyyətli ağaclar birdən-birə kəsilir, Ermənistana daşınır, daha sonra emal olunur və təsərrüfat baxımından istifadə olunurdu. Ərazidən axan çaylar müxtəlif maddələrlə çirklənib. Çirklənmiş su ətraf ərazilərin əhalisi və təsərrüfatları üçün ciddi təhlükə yaradır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində gedən müharibə burada ekoloji vəziyyəti daha da ağırlaşdırıb. Ərazidə aparılan hərbi əməliyyatlar quruya, meşələrə və su ehtiyatlarına böyük ziyan vurub. Uzun illər zəngin mineral ehtiyatlardan istifadə edilməməsi iqtisadi rayonların inkişafına mənfi təsir göstərir. Ermənistan qoşunlarının törətdiyi yanğınlar rayonların ekosistemlərində və cəbhəyanı təsərrüfatlarda fəsadlar törədib.

İqtisadi rayonlaşdırmanın yeni prinsipləri ölkə üzrə iqtisadi fəallığın və dövlət investisiyalarının artırılmasına, ölkənin regionlarında sahibkarlığın və iqtisadiyyatın inkişafına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, əhalinin gəlirlərinin şaxələndirilməsinə və həyat şəraitinin daha da yaxşılaşdırılması üçün imkanlar yaradır. Xüsusilə, mövcud qlobal təhlükəni və Covid 19 pandemiyasının yaratdığı vəziyyəti nəzərə alaraq, iqtisadi sektorun sürətli bərpası, iqtisadi tənəzzüllərin aradan qaldırılması və səmərəliliyin daha da yüksəldilməsi önəm kəsb edir. Digər tərəfdən, xüsusi iqtisadi zonaların yenilənməsi və yeni iqtisadi zona müharibəsində qələbədən sonra formalaşan obyektiv reallıq buna təsir edəcək. Bununla da xalq təsərrüfatından azad edilmiş iqtisadi rayonların bölgüsünün yenilənməsini, rayonların iqtisadiyyatından və ehtiyatlarından daha dəqiq və səmərəli istifadəni və bölgüsünü təmin etmək mümkün olacaq.

Respublikada zəngin təbii ehtiyat imkanlarından turizm məqsədilə istifadə olunmasında çətinliklərin mövcudluğu, təbii ehtiyat potensialından lazımi səviyyədə istifadə olunmaması, turizm sənayesi və qonaqpərvərliyin inkişafına təsir edən infrastrukturun hələ yaradılmaqda olması, istirahətin qısamüddətli təşkili, turizm sektoruna yatırım qoymaq istəyən yerli sahibkarların inamsızlığı və digər səbəblər ucbatından turizm bazarının formalaşması ilkin mərhələdədir və bu bazar inkişaf etməkdə olan zəif bazar kimi qiymətləndirilə bilər. Bu vəziyyət özünü getmə və gəlmə turizminin nisbətində daha qabarıq göstərir. Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumatlara əsasən səyahət agentlikləri və turoperatorların son 5 ilin statistik göstəricilərinə nəzər salsaq, görərik ki, ölkəyə gələn turistlərin sayı ən çox 2018 və 2019-cu illərdə olmuş, müvafiq olaraq 12777 nəfər və 30950 nəfər təşkil etmişdir. Bu rəqəmlər isə həmin illərdə təşkil olunan bir sıra beynəlxalq tədbirlərin, idman yarışlarının ( formula 1, futbol üzrə avropa liqasının finalı) və başqa mötəbər tədbirlərin təşkili nəticəsində formalaşmışdır. Ölkədən gedən turistlərin sayı isə nisbətdə daha çoxdur və ən yuxarı göstərici 2018-ci ildə qeydə alınmışdır, 70945 nəfər ölkədən xaricə turist kimi səyahət etmişdir. 2020-ci ildə baş verən pandemiya təbii olaraq turizm sektoruna da təsir etmiş, gələn və gedən turistlərin sayı bir xeyli azalmış, müvafiq olaraq 2304 nəfər və 5901 nəfər olmuşdur. Bunlar ölkədən kapital axının hər il nə dərəcədə artdığını göstərir. ( Cədvəl 1.)

**Cədvəl 1: Qəbul edilmiş və göndərilmiş turistlər**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər** | **63,543** | **77,587** | **83,722** | **99,507** | **8,205** |
| o cümlədən: | | | | | |
| qəbul edilmiş | 8,949 | 13,455 | 12,777 | 30,950 | 2,304 |
| göndərilmiş | 54,594 | 64,132 | 70,945 | 68,557 | 5,901 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az

"2020-ci ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda əlavə dəyər istehsalı 821,1 milyon manat təşkil edib ki, bu da 2019-cu illə müqayisədə 58,9% azdır. Nəticədə sektorun ÜDM-də payı 1,2 faiz bəndi – 1,2%-ə qədər azalıb", - deyə hökumətin 2020-ci ilə dair hesabatında bildirilir. Bununla yanaşı, 2018-ci ildə sektorda əlavə dəyər 7,6%, 2019-cu ildə 6,4% artıb. 2020-ci ildə bu sektorda əsas kapitala investisiyalar 62,8 milyon manat olmuş, azalma 2019-cu illə müqayisədə 29,4% təşkil edib.

Əsas kapitala investisiyaların ümumi həcmində turistlərin yerləşdirilməsi və qida sektorunun payı 0,4% təşkil edib.Koronavirus pandemiyası hələ də davam etməkdədir və pandemiyanın təsiri təbii olaraq Azərbaycan iqtisadiyyatından da yan keçməyib. Dünyanın bir çox ölkələrində olduğu kimi ölkəmızdə də bir müddət qapanmalar və müəyyən məhdudiyyətlər həyata keçirilmişdi. Xüsusi karantin rejiminin müddəti uzadılaraq məcburiyyətlər tətbiq olunmuşdur. Turizm sahəsində əksər şirkətlərində problemlər yaranıb, hətta bəziləri ya bağlanıb, ya da bağlanmaq təhlükəsi ilə üz-üzə qalıb. Pandemiya ilə əlaqədar dövlətin müəyyən dəstəyi olsa da, daxili və xarici turizmin demək olar ki, dayanması şirkətlərin problemlərini həll etməyib və onların böyük maddi ziyan dəyib. Xüsusən də hökumət tərəfindən dövlət sifarişli investisiyaların həcminin azalması və şəraitə uyğun olaraq xarici investorların da yatırımlar etməməsi turizm sektoruna ciddi zərər verdi.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 2020-ci ildə pandemiya və postpandemiya dövründə ölkə iqtisadiyyatına dəymiş zərərlərin azaldılması məqsədilə tədbirlər planı hazırlanmışdır. Həmin plana əsasən 2020-ci ildə iqtisadi artıma, sahibkarlığa dəstək tədbirləri, iş yerlərində sosial sabitliyin qorunması, iqtisadi fəallığın qorunması məqsədilə vergi stimullarının

verilməsi, postpandemiya dövründə iqtisadi artımın yeni modelinin tətbiqi, makroiqtisadi və maliyyə sabitliyi və ölkə iqtisadiyyatının mühüm istiqamətlərində tədbirlər həyata keçirilmişdir.

2020-ci il statistik məlumatlarına əsasən ölkəyə gələn və ölkədən gedən turistlərin sayında ciddi azalma baş vermişdir. Bu da həm daxildə turizm sahəsi ilə əlaqəli olan digər peşə sahiblərinin, həm də xaricə turistik turlar təşkil edən şirkətlərin və aviasiya şirkətlərinin gəlirlərində ciddi azalmalara səbəb olmuşdur. 2019-cu və 2020-ci illər üzrə ölkəyə gələn xarici şəxslərin həmin illərdəki rüblər üzrə müqayisəsini aparsaq görərik ki, 2019-cu ilin 3-cü rübündə Azərbaycana gələn xarici şəxslərin sayı daha həmin il üzrə ən yüksək həddə - 1008 min nəfərə bərabər olmuşdur. 2020-ci ilin müvafiq rübündə isə göstərici təxminən 10.5 dəfə azalmış və cəmi 96 min nəfər təşkil etmişdir. 2020-ci il üzrə ölkəyə xaricdən gələnlərin sayında ən yüksək göstərici həmin ilin 1-ci rübündə qeydə alınmışdır ki, bu da pandemiyanın ölkə ərazisinə hələ yeni qədəm qoyduğu, ciddi məhdudiyyətlərin tətbiq olunmadığı, beynəlxalq uçuşların hələ də davam etdiyi dövrə təsadüf edir. Həmin rübdə ölkəyə xaricdən gələnlərin sayı 519 min nəfərə bərabər olmuş və əvvəlki ilin göstəricisi ilə müqayisədə cəmi 17.7 faiz və ya 92 min nəfər az olmuşdur. Qeyd etmək yerinə düşər ki, 2020-ci il üzrə xarici səfərlərin əksəriyyəti qeyri-turizm məqsədilə olmuşdur. ( Qrafik 1.)

**Qrafik 1: 2019-2020-ci illərdə Azərbaycana gələn xarici şəxslərin sayı, min nəfər**




**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az

Ölkə üzrə turizm xidmətlərinin idxal və ixrac göstəricilərində də kəskin fərqlər yaranmışdır. 2019-cu ildə turizm xidmətləri ixracı 79 milyon ABŞ dolları fərqlə idxalı üstələmiş, 1791 milyon ABŞ dolları ixrac, 1712 milyon ABŞ dolları isə idxal olmuşdur. 2020-ci ildə bu göstərici kəskin şəkildə dəyişmişdir. Həmin il üzrə turizm xidmətlərinin ixrac; 305 milyon ABŞ dollarına bərabər olmuşdursa, idxal göstəricisi 107 milyon ABŞ dolları çox olmaqla 412 milyon ABŞ dollarını təşkil etmişdir. Xüsusən qeyd etmək lazımdır ki, ölkə üzrə turizm xidmətlərinin ixracı və idxalı arasındakı saldo 2016-cı ildən bəri yalnız müsbətə bərabər olmuşdur. 2020-ci ildə göstəricinin mənfi olması pandemiyanın Azərbaycan turizminə və iqtisadiyyatına ciddi təsiri olduğunu göstərir. (Qrafik 2.)

**Qrafik 2: 2019-2020-ci illərdə turizm xidmətləri dövriyyəsi, milyon ABŞ dolları**




**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az

## *4.2 Problemin həlli yolları*

Mövcud olan problemlərə baxmayaq, Azərbaycan postpandemiya ərzində turizmin inkişafı üçün kompleks tədbirlərə əl atmalıdır. Ələxsus da "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin 2025-ci ilədək region ölkələri arasında və eyni zamanda digər dünya ölklər arasında əsas turizm öklərindən birinə çevrilməyi hədəf qoymalıdır. Qarabağın işğaldan azad olunması, Qarabağ və

Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm potensiallarının üstünlüklərindən yararlanmaq bu baxımından çox əhəmiyyətli olacaqdır.

Hər bir iqtisadi inkişafın özünəməxsus xüsusi prosesi və xüsusiyyətləri vardır. Burada coğrafi faktorlar, təbii amillər və iqtisadi amillər kimi bir neçə faktor daha vacibdir. Məşğulluq xüsusiyyətləri, milli adət və ənənələr milli məhsul üçün mühüm xidmətlərdir. İqtisadi rayonların planlı və nizamlı idarə edilməsi, burada tələb olunan prioritet layihələrin işlənib hazırlanması və həyata keçirilməsi, dövlət maliyyələşdirmə mexanizmlərinin işlənib hazırlanması və tətbiqi, digər maliyyə resurslarının inkişafı, əhalinin məşğulluğu və təsərrüfat fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, sosial infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir. İstehsal və kommersiya infrastrukturunun təmin edilməsi, sahibkarlığın təşviqi və biznes mühitinin inkişafının təşviqi əsas prespektivlərdəndir.

İqtisadi sektorun davamlı və dinamik inkişafı üçün iqtisadi fəaliyyətin modelləşdirilməsi və sahibkarlığın inkişafı milli siyasətə mühüm dəstək rolunu oynayır. Məsələn, sahibkarlığın maliyyələşdirilməsi potensial iqtisadi zona prioritetlərinin müəyyən edilməsini və bu sahələrə marağı olan həm də potensial investorların cəlb edilməsini tələb etməyi nəzərdə tutur. İnanırıq ki, yaxın gələcəkdə yeni iqtisadi rayonlarda yüksək texnologiyalı kapital iqtisadiyyatlarının və sahibkarlığın inkişafı üçün daha səmərəli mexanizmlərin hazırlanması təmin ediləcək. Çevik və məhsuldar texnologiyaya malik istehsal və emal sahələrinin yaradılması, yaradıcı və məhsuldar xidmət fəaliyyətinin qurulması ilə dəstəklənir. Bütün bunlar onu göstərir ki, yeni iqtisadi rayonlarda sosial-iqtisadi inkişaf daha dinamik və məhsuldar olacaqdır.

Digər tərəfdən, yeni iqtisadi zona siyasi və milli təhlükəsizlikdir. Məlumdur ki, "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri"nin hədəfləri həyata keçirilir. Fikrimizcə, bu imkanı gücləndirmək bizim dövlət üçün şanslarımızı artırır və biz bunu öz milli təhlükəsizliyimizə çevirir, əlavə təhlükəsizliyimizi daha da gücləndiririk. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə Qarabağın özü də makroiqtisadi konsepsiya kimi gündəmə gəlib və revanşist ideyalara qarşı ehtiyat tədbiri kimi dəyərləndirilə bilər. Eyni zamanda, Şərqi Zəngəzurda iqtisadi inkişafın qurulması Azərbaycanın qoca ölkənin dirçəlişində və inkişafında nə qədər güclü olduğunu göstərir. Regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün imtiyazlı şərait yaradılır.

Mövcud şəraitdə yeni bölgü əsasında müəyyən edilmiş Şərqi Zəngəzur İqtisadi Rayonunun ərazisi sənaye, turizm, və kənd təsərrüfatı daxil olmaqla, müxtəlif iqtisadi sahələrin inkişafı üçün böyük təbii və iqtisadi ehtiyatlara və potensiala malikdir.

Azərbaycanın incisi, Qarabağın gözü hesab olunan, mədəniyyət paytaxtı Şuşa şəhəri eyni zamanda respublikanın əsas sağlamlıq və istirahət mərkəzlərindən biri hesab oluna bilər. Dəniz səviyyəsindən 1600 metr hündürlükdə yerləşən Şuşa şəhərini bir çox göstəricilərinə görə hətta dünyaca məşhur İsveçrənin Davos kurortu ilə də müqayisə etmək olar. ( Şəkil 1.)



**Şəkil 1: Şuşa şəhəri və Davos kurortu**

Avropanın ən hündür dağ kurortu olan Davos ətrafındakı yamacları darıxmağa qoymurlar. İki yer bir-birindən olduqca uzaqdır, lakin ümumi xizək yolunu paylaşırlar. Marşrutların ümumi sayı 99, ümumi uzunluğu 320 kilometrdir. Onların bəziləri ilə zirvədən vadinin dibinə qədər dayanmadan 10 kilometr sürüşmək mümkündür.

Əsas xizək sahəsindəki Parsen Davosun şimalında, Klostersdən qərbdə, mərkəzdə Veisluf zirvəsi yerləşir. Davos həm də müalicəvi kurort kimi də məşhurdur — burada açılmış bir neçə nüfuzlu tibbi klinika tənəffüs yolları xəstəliklərinin, allergiyaların və dəri xəstəliklərinin müalicəsində ixtisaslaşıblar. Sağlamlıq mərkəzləri və möhtəşəm dağ relyefi ilə göz oxşayan Şuşa şəhərini də kurort mərkəzlərindən birinə çevirmək, istər sağlamlıq turizmi, istər dağ-kurort turizminin inkişafı nəticəsində ölkəyə kapital axınını artırmaq mümkündür.

Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcər İstisu qəsəbəsində Ümumittifaqın iki böyük sanatoriyası var idi. Orada hər il 50 min insan müalicə olunur və istirahət edirdi. İstisu mineral suyu ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək olar. Burada kurort və şüşə su obyektləri də var idi. Kəlbəcərin turizm potensialı hətta Qafqasın turizm mərkəzi olan Gürcüstana da mühüm rəqib ola bilərik. Kəlbəcər relyefi dünyanın ən yaxşı və ən maraqlı turizm xidmətlərindən birinin qurulmasına imkan verir. Həmin potensialdan düzgün istifadə etməklə biz Qafqazda ən böyük turizm mərkəzi yarada və Gürcüstana turist axınını dəyişə bilərik.

Sərhəd rayonu olan Zəngilanı "imperiyaya" çevirmək olar...

- İran və Ermənistan ilə sərhəddə yerləşmə,
- Naxçıvan və Türkiyəyə yeganə dəmir yolu və avtomobil yolunun üstündə yerləşmə,
- Türkiyədən birbaşa Rusiyaya və orta Asiyaya gedən yeganə dəmir yolunun üstündə yerləşmə,
- Nəhəng Mincivan dəmiryolu stansiyasının qurulması imkanı,
- Yolüstü hotel və restoranlar, yanacaqdoldurma məntəqələri, marketlər, avtotəmir yerləri, ödənişli uzunmüddətli dayanacaq xidmətləri üçün nəhəng iş imkanları,
- Oranı bölgənin digər ölkələrinin iş adamları üçün "offshore" zona etmək imkanı,
- Böyük şirkətlərin istehsalat və anbarlarını burada yerləşdirib, onlara məhsullarını Azərbaycan, Naxçıvan, Türkiyə, İran, Rusiya, Gürcüstan, hətta gələcəkdə Ermənistan istiqamətində göndərmə imkanının verilməsi mümkünlüyü,
- Təbii sərvətləri, qızıl və digər qiymətli metal yataqları, Çinar meşəsi, bolsulu çay və bulaqları.

Zəngilanımız üzərindən çox böyük bir pul dövriyyəsini idarə edə bilərik. Həm qonşu ölkələrdən investisiya cəlb edə, həm də yerli insanlarımıza, yerli iş adamlarımıza yeni fürsətlər qazandıra bilərik.

Sovet dövründə də Azərbaycanda çoxlu kurortlar, müalicə mərkəzləri var idi. Xüsusilə, "İstisu" Kəlbəcər rayonunda bütün koalisiyaların əhəmiyyətinə malikdir. Ora müxtəlif ölkələrdən, eləcə də dünyanın müxtəlif respublikalarından istirahət və müalicə üçün gəlirdilər. Amma keçmiş Sovet İttifaqının dağılmasından sonra müstəqilliyin bərpasının ilk bir neçə ilində mənfur qonşularımız öz himayədarlarının köməyi ilə Qarabağı işğal etdilər. İşğal nəticəsində burada hər şey dağıdılıb. Təbii sərvətlərimiz, o cümlədən su Resursumuz İstisu kurortu dağıdılıb və məhv edilib. Böyük Qarabağ Qələbəsindən sonra regionda turizm və rekreasiya imkanlarının kommersiyalaşdırılması biznes proseslərinə inteqrasiya üçün üstünlük verəcəkdir. Buna baxmayaraq pandemiyaya görə turizm sənayesi və turizm biznesində qiymətləndirmənin həyata keçirilməsi, pandemiyadan sonrakı vəziyyətdə regionun inkişaf perspektivləri araşdırılacaq və qiymətləndiriləcək.

Pandemiya şəraitində turizm sektorunun fəaliyyətinin davam etdirilməsi üçün tanıtım strategiyaları, onlayn platformaların və təlim mərkəzlərinin yaradılması, turizm prioriteti olub. Onun bərpası üçün işlər görülüb. Yeni turizm istiqamətlərinin təqdim edilməsinə başlanılıb. Qarabağ istiqaməti turizmin birinci mərhələsində Azərbaycanın diaspor nümayəndələrinin marağına səbəb olacaq. Hazırda işğaldan azad edilmiş ərazinin turizm strategiyası və Şuşanın turizm konsepsiyası üzərində işlər görülür. Bu amilləri nəzərə alaraq, turizm sektorunun və onun biznesinin sabitləşdirilməsi post-pandemiya dövründə mühüm əhəmiyyət kəsb edir və mövcud turizm layihələrinin potensialı, xüsusən də azad edilmiş ərazilərdə, bu baxımdan vacibdir.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazinin turizm potensialı Qarabağ bölgəsində biznes proseslərini sürətləndirmək üçün yeni imkanlar açır. Burada təbiətin gözəl və füsunkar guşəsi, mineral müalicə üçün içməli su turistlər üçün istirahət potensialına malikdir. Kəlbəcər və Zəngilandakı isti bulaqlar, Şuşadakı spa terapiya mərkəzi, potensial kanat yolu, Xudafərin körpüsü, Azıx mağaraları yeni turizm marşrutları üçün cəlbedicidir. Qarabağda xalça turu təşkil etmək çox maraqlı olardı. Turşsu laylasının müalicəsi və sanatoriyaların potensialı çərçivəsində böyük turizm kompleksi turizm klasterlərinin yaradılmasını mümkün edir. Bu ərazilərdə din,

ekologiya, aqroturizm və digər turizm sektorları üçün ucuz turizm biznesi imkanları mövcuddur.

## 5. Nəticə və təkliflər

Bu araşdırmanın nəticələri Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində vurulan ziyanın və təhlükələrin miqyaslarının nə qədər böyük olduğunu əyani şəkildə nümayiş etdirir. İlkin hesablamalara görə işğal nəticəsində Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəyə 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Oğurlanmış və məhv edilmiş tarixi-mədəni sərvətlərimizin dəyərini isə pulla qiymətləndirmək mümkün deyildir. Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycan sərvətlərini talamışdır.

Tədqiqatın əsas məqsədi ölkənin turizm ehtiyatlarını, ən əsası da işğal olunmuş ərazilərin potensial turizm imkanlarını, qanunsuz fəaliyyət nəticəsində dəymiş iqtisadi-ekoloji zərəri, bu zərərin ölkə turizminə təsirini müəyyənləşdirmək idi. İşğal olunmuş ərazilərdə nadir fauna və floraya malik meşə sərvətləri, çox qiymətli su mənbələri vardır. Ermənilər işğal etdiyi ərazilərdə bu qiymətli sərvətləri amansızcasına dağıdır, Ermənistana daşıyır, daşınması mümkün olmayanları isə yandırmaqla ekologiyaya ciddi ziyan vururdular.

Tədqiqatın nəticələri göstərir ki, işğal olunmuş ərazilərdə meşələrdəki qiymətli ağaclar kəsilib satılır, işğal altındakı yaşayış məntəqələrindəki tikililərin xeyli hissəsi dağıdılır və tikinti materialı kimi Ermənistana daşınırdı. İşğal zonasında qalmış faydalı qazıntıların istismarı ildən-ilə genişləndirilirdi. Bir sıra ölkələrin şirkətləri beynəlxalq konvensiyaların hamı tərəfindən gözlənilməli olan təməl prinsiplərini pozaraq bu talançılıqda iştirak edirlərdi.

Bu nəticələrin ümumiləşdirilməsi müəyyən məhdudiyyətlərdən asılıdır. Belə ki, bu araşdırmada Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına həm turizm sektoru baxımından, həm də ümumi iqtisadi-ekoloji baxımından dəymiş zərəri dəqiq olaraq qiymətləndirmək mümkün olmadı.

Bu tədqiqatın tapıntıları gələcək təcrübə üçün bir neçə tövsiyyələri nəzərdə tutur. Birincisi, ərazilər minalardan təmizləndikdən sonra mütəxəssislərin cəlb olunması ilə ətraf mühitə və iqtisadiyyata dəymiş ziyanı tam olaraq müəyyənləşdirmək. İkincisi, bu zərər qarşılığında beynəlxalq qanunlar əsasında təzminat məbləğini hesablayıb tələb etmək.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

**Əlaqə məlumatı**

**E-mail:** asiman.musayev98@gmail.com

## Ədəbiyyat:

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi - https://tourism.gov.az/
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi məlumatları - https://www.economy.gov.az/
Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf
Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi məlumatları – www.stat.gov.az
Babək Cahandarov (2010)- Ermənilərin ekoloji terror siyasəti
Çərkəz Qubadlı (Məmmədov) (2007)- "Qubadlının təbiəti erməni işğalından əvvəl və sonra"
Əli Məsimli (2020) – Qarabağın işğalının iqtisadi nəticələri http://www.anl.az/el/q/qarabag_6/q-12.htm.Ermənilərin talan etdikləri təbii sərvətlərimiz
Həbibə Soltanova (2015). "Azərbaycan Respublikasında turizm və onun inkişafı", , AzTU mətbəəsi, Bakı.238 səh
http://www.anl.az/down/meqale/baki_xeber/2018/avqust/603696.htm
http://www.anl.az/down/meqale/paritet/2010/iyul/126525.htm
https://apa.az/az/dagliq_qarabag/xeber_isgal_olunmus_erazilerde_azerbaycana_dey_-415351
https://fed.az/az/biznes/qarabagi-talayan-xarici-sirketler-siyahi-43587
https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050
International tourism: What, where and why - https://tourismteacher.com/international-tourism/
İradə Sarıyeva (2018). Ermənilərin talan etdikləri təbii sərvətlərimiz…" Bakı, Xəbər, 6 səh
Könül Məmmədova – "Qarabağın turizm potensialı" - https://sia.az/az/news/tourism/844259.html
Leyla Rəşid (2020). İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. Xalq qəzeti, Bakı.
Məmmədov Məlikməmməd (2014). Regional konseptual inkişaf: iqtisadi-ekoloji problemlər. B.: "Elm".
Qafar Çaxmaqlı (2009). Qarabağ işğaldan əvvəl...və sonra . M. Oxçoğlu.-Bakı: [Hərbi nəş-t], 2009.
Turizm haqqında Azərbaycan Respublikasının qanunu - http://www.e-qanun.az/framework/4759
World Tourism and Travel Council - https://wttc.org/
World Tourism Organization- https://www.unwto.org/

## SUMMARY

# PERSPECTIVE INVESTMENT OPPORTUNITIES FOR TOURISM IN KARABAKH AND EASTERN ZANGAZUR ECONOMIC REGIONS



**Asiman Musayev**
**Fam Group Consulting LLD, Azerbaijan**



One of the reasons for several problems in the field of tourism in the Republic of Azerbaijan is the occupation of 20% of the territory by the Armenian armed forces (about 17,000 square kilometers), the expulsion of more than 1 million refugees from their native lands. Such a situation is political, economic, moral, cultural, social and so on. should be considered as a major factor in the emergence of problems. This fact can never be questioned whether Karabakh is the eternal territory of Azerbaijan. No force can take away the feeling of ownership of these lands from us, the people of Azerbaijan, and destroy our endless love for Karabakh. During the past period, Armenians invaded Karabakh, plundered its surface and underground resources, and inflicted incurable wounds on its beautiful nature. What are the consequences of these problems? What important tourism facilities and resources in Nagorno-Karabakh and surrounding areas were damaged during the occupation? To what extent has all this affected the economy of our country, the beautiful, charming nature of the region? The study sought answers to such questions.

The main purpose of the research is to identify the tourism potential of the Karabakh and Eastern Zangazur economic regions and potential investment projects. To do this, it is necessary to involve the existing economic and natural resources in the region in an efficient economy, to study the existing investment projects in international practice, to ensure the effectiveness of investments in both international and domestic projects, to develop recommendations. To achieve this goal, several tasks must be performed. The economic and social nature of tourism in the country should be determined, and theoretical principles in the organization of tourism activities should be investigated. The current situation should be analyzed and compared with the past. It is necessary to analyze the dynamics of investments in tourism, to study the application of international experience. For this purpose, the quantitative method was used during the study, and the environmental and economic damage caused to the region by the occupying forces in connection with tourism was noted.


***Keywords:*** Karabakh, Eastern Zangazur, tourism, ecology, investment

## РЕЗЮМЕ

### Инвестиционные возможности перспективы туризма в Карабахском и Восточно-Зангезурском экономических районах

**Асиман Мусаев**
**ООО "Фам Груп Консалтинг", Азербайджан**

Одной из причин ряда проблем в сфере туризма в Азербайджанской Республике является оккупация вооруженными силами Армении 20% территории (около 17 тысяч квадратных километров), изгнание более 1 миллиона беженцев и вынужденных переселенцев из родных земель. Такая ситуация рассматривается как основной фактор возникновения политических, экономических, нравственных, культурных, социальных и так далее проблем.

Факт того, что Карабах является древней и вечной территорией Азербайджана никогда не может подвергаться сомнению. Никакая сила не может отнять у нас, азербайджанского народа чувство собственности на эти земли, и разрушить нашу бесконечную любовь к Карабаху. В истекший период армяне вторглись в Карабах, разграбили его наземные и подземные ресурсы, нанесли неизлечимые раны его прекрасной природе. Каковы последствия этих проблем?

Какие важные туристические объекты и ресурсы в Нагорном Карабахе и прилегающих районах пострадали во время оккупации? В какой степени все это отразилось на экономике нашей страны, на красивой, чарующей природе края? Исследование искало ответы на такие вопросы. Основной целью исследования является выявление туристического потенциала Карабахского и Восточно-Зангезурского экономических районов и потенциальных инвестиционных проектов. Для этого необходимо вовлечь имеющиеся в регионе экономические и природные ресурсы в эффективную экономику, изучить существующие инвестиционные проекты в международной практике, обеспечить эффективность инвестиций как в международные, так и в отечественные проекты, разработать рекомендации.

Для достижения этой цели необходимо выполнить ряд задач. Должна быть определена экономическая и социальная сущность туризма в стране, а также исследованы теоретические основы организации туристской деятельности.

Нынешнюю ситуацию следует проанализировать и сравнить с прошлым. Необходимо проанализировать динамику инвестиций в туризм, изучить применение международного опыта.С этой целью в ходе исследования был использован количественный метод, а также отмечен экологический и экономический ущерб в связи с туризмом, нанесенный региону оккупационными войсками.

***Ключевые слова:*** Карабах, Восточный Зангезур, туризм, экология, инвестиции